OFTALMOLOGİYA
ELMİ-PRAKTİK JURNAL




Fransanın Paris şəhərində ən gözəl otellərdən biri sayılan Le Palais des Congrès-də 2010-cu ilin 4-8 sentyabr tarixində Katarakta və Refraktiv Cərrahiyyə Avropa Cəmiyyətinin (ESRCS) XXVIII Konqresi və 2-5 sentyabr tarixində Retina Mütəxəssislərinin Avropa Cəmiyyətinin (EURETINA) 10-cu





Konqresi keçirimişdir.

Konqreslər oftalmologiyaya dair sualların geniş spektrinə həsr edilmişdir. Hər iki konqres müddətində simpoziumlar, cərrahi təlim kursları, Wetlab proqramı və müxtəlif sosial tədbirlər aparılmışdır. Konqreslərin elmi proqramı müxtəlif idi, lakin 4 və 5 sentyabrda birgə simpoziumlar təşkil edilmişdir.








Konqreslərdə ölkəmizi 40 yaxın oftalmoloqlardan ibarət nümayəndə heyəti təmsil etmişdir. Onlardan bir çoxu ESRCS və EURETINA beynəlxalq təşkilatların üzvləridir. Nümayəndə heyətimiz Konqresin işinin bütün istiqamətlərində fəal iştirak etmişdir.





Sentyabr ayının 3-dən 7-ə qədər Konqreslər çərçivəsində möhtəşəm sərgi təşkil edilmişdir. Sərgidə dünyanın 200-dən artıq aparıcı oftalmoloji kompaniyaları iştirak etmişdir. Bu kompaniyalar tərəfindən oftalmoloji elminin ən yeni nailiyyətləri, müasir oftalmoloji avadanlıqlar təqdim edilmişdir. 8 sentyabr tarixində Konqresin təntənəli bağlanış mərasimi keçirilmişdir.







